# İnkişaf, qüdrət günü

**Milli Qurtuluş Günü Azərbaycan tarixinin ən möhtəşəm və əlamətdar hadisələrindən biridir. Bu, müasir dövrümüzün qürurverici tarixidir.**
**Müstəqilliyimizi elan etdiyimiz vaxtlardan başlayaraq Azərbaycanda çox dərin böhran hökm sürürdü. Həm ermənilər torpaqlarımızı işğal edirdi, həm də elə bir lider yox idi ki, bu proseslərin qabağında dursun.**



Bəzi qüvvələr bundan istifadə edərək Azərbaycana daha çox təzyiq göstərməyə çalışırdılar. 1993-cü ilin iyun ayında böhran pik nöqtəsinə çatdı və hökumətin səriştəsiz siyasəti nəticəsində Azərbaycan parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Cənubdan, şimaldan digər istiqamətlərdən Azərbaycana qarşı ancaq məkrli siyasət, qopartmaq, bölmək, dağıtmaq kimi prinsiplərdən istifadə olunurdu.

O zaman bizi ancaq güclü lider xilas edə bilərdi. Bu lider isə Heydər Əliyev idi. Belə bir zamanda xalqın təkidi ilə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi.

Heydər Əliyev 1993-cü il iyunun 15-də siyasi hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirməyə başladı. Ulu Öndər ölkəmizin müstəqilliyini qorudu, hərbi-siyasi böhranı aradan qaldırdı, vətəndaş qarşıdurmasının qarşısını aldı. Heydər Əliyevin müdrikliyi ilə Azərbaycan problemlərdən, ən əsası müstəqilliyini itirməkdən və parçalanmaqdan, məhv olmaq təhlükəsindən xilas oldu.

Heydər Əliyev ölkəmizi inkişaf yoluna apardı. 15 iyun tarixi isə 1997-ci ildə Milli Məclis tərəfindən Milli Qurtuluş Günü elan olundu.

Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti, onun təcrübəsi nəticəsində gələcəyə yeni bir pəncərə açdı. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yüksəlişində mühüm hadisə oldu. Heydər Əliyevin rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz layihələrinə başlanıldı. Bütün bunlar gələcək layihələrə sərmayə qoymaq üçün yol açdı.

Heydər Əliyevin siyasi kursu Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu siyasətin nəticəsi kimi Azərbaycan daha da güclənib inkişaf edib. Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti ilə 44 günlük Vətən müharibəsində işğal altında torpaqlarımız azad olundu, lokal antiterror tədbirlərindən sonra suverenliyimiz tam bərpa edildi. İndi Azərbaycan dünyada qalib dövlət, beynəlxalq birliyin nüfuzlu üzvü kimi tanınır.

Prezident İlham Əliyevin tarixinin ən güclü dövlətinə çevirdiyi Azərbaycan inkişaf, sülh və əməkdaşlıq məkanıdır. Ulu Öndərin qurtuluş məfkurəsi isə hər zaman uğurlarımızın təməlində dayanacaq.

**Arzu NAĞIYEV,**
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2024.- 15 iyun, № 126.- S.7.